

# KİBERCİNAYƏTKARLIQLA MÜBARİZƏ YOLLARI

## MƏLUMAT KİTABÇASI

HÜQUQ ŞİRKƏTİ BHM LAW FIRM

Ünvan: “SKS” Plaza, 7-ci mərtəbə, Füzuli küç. 49, AZ1014 Bakı, Azərbaycan.
Telefon: +994 12 480 00 02; +994 12 492 28 83; +994 12 492 03 57.
E-poçt: office@bhm.az



**KİBERCİNAYƏTLƏR VƏ TÖRƏDİLMƏ ÜSULLARI**

Kibercinayətlər kibermәkanda (virtual mühit) baş verən, kompüter sistemlərindən istifadə etməklə və ya bu sistemlərə qarşı törədilən cinayətlərdir.

Azərbaycan Respublikasının da tərəf olduğu Kibercinayətkarlıq haqqında Konvensiyada (Budapeşt Konvensiyası) kibercinayətlərin dairəsi müəyyən edilmişdir.

Konvensiyaya əsasən kompüter sisteminə qanunsuz daxil olma, kompüter verilənlərinin belə hüquq olmadan qəsdən zədələnməsi, silinməsi, korlanması, dəyişdirilməsi, kompüter vasitələrindən istifadə etməklə dələduzluq kimi əməllər kibercinayət hesab edilmişdir.

Kibercinayətkarlar tərəfindən bu əməllər müxtəlif üsullarla törədilir. Kibercinayətlərin törədilməsinin ən geniş yayılmış formaları sırasında şəxsi məlumatlar və ya kimlik oğurluğu (ID theft), xidmətdən imtina (DoS (Denial-of-Service)) hücumları, fişinq (phishing), zərərli proqram təminatı (malware) göstərilir.




## VƏTƏNDAŞ VƏ KİBERCİNAYƏT: MÜHAFİZƏ YOLLARI

AR Cinayət Məcəlləsinin 30-cu fəslinə əsasən (271-273-2-ci maddələr) aşağıdakı əməllər kibercinayət hesab olunur:

- Kompüter sisteminə qanunsuz daxil olma;
- Kompüter məlumatlarını qanunsuz ələ keçirmə;
- Kompüter sisteminə və ya kompüter məlumatlarına qanunsuz müdaxilə;
- Kibercinayətlərin törədilməsi üçün hazırlanmış vasitələrin dövriyyəsi;
- Kompüter məlumatlarının saxtalaşdırılması.

Azərbaycan Respublikasında kibercinayət əməllərinin qarşısının alınması istiqamətində müxtəlif dövlət orqanları fəaliyyət göstərir. Bu sahədə fəaliyyət göstərən hüquq mühafizə orqanları Dövlət Təhlükəsizlik Xidməti (DTX) və Daxili İşlər Nazirliyidir (DİN). İlk olaraq kimin başlatmasından asılı olaraq, kibercinayət işləri üzrə ibtidai istintaqı DTX və ya DİN-in polis orqanları həyata keçirir. DİN-in Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsi internet platformalarında informasiya texnologiyalarından istifadə edilməklə törədilən hüquqazidd əməllərin qarşısının alınması fəaliyyəti ilə məşğul olur.




Vətəndaşlardan kibertəhlükəsizlik məsələləri ilə əlaqədar olaraq müraciət qəbul edən digər dövlət orqanı Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidmətidir.

Elektron Təhlükəsizlik Xidməti informasiya sistemlərinə yönəlmiş kiberhücumların qarşısını almaq üçün məlumatların operativ qəbulu və insidentlərin analizi, internet şəbəkəsinin və informasiya sistemlərinin kibertəhlükəsizliyinə yaranan təhdidlər haqqında vaxtında məlumat verilməsi və kompüter insidentlərinin təhqiqatında əhaliyə və özəl sektora metodiki köməklik göstərilməsi istiqamətində fəaliyyət göstərir. Bununla yanaşı Xidmət, fərdi məlumatların qanunsuz toplanılması, işlənilməsi, mühafizəsinin təmin edilməməsi nəticəsində hüquqları pozulmuş subyektlərin şikayətlərinə baxır, onları araşdırır və qanunun tələblərini pozmuş şəxslərin məsuliyyətə cəlb edilməsi üçün aidiyyəti dövlət orqanları ilə birlikdə tədbirlər görür.

**Əlaqə vasitələri:**

**Xidmətin “Qaynar xətt” telefon nömrəsi 1654-dür. Bununla yanaşı xüsusi insidentlə üzləşən vətəndaşlar reports@cert.az elektron ünvanına yaza bilərlər.**